# Forum informasiya sahəsində ölkəmizin nüfuzunu yeni zirvələrə daşıyacaq

**İyulun 19-da Xankəndidə keçirilən "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun müstəqil milli mətbuatımızın 150 illiyi ərəfəsində keçirilməsi həm rəmzi, həm də strateji əhəmiyyətə malikdir. Bu mühüm tədbir informasiya və media mühitində gedən qlobal proseslər fonunda Azərbaycanın təşəbbüskar, ağıllı və proqressiv yanaşmasının daha bir təzahürüdür.**



Prezident İlham Əliyevin uzaqgörən və praqmatik liderliyi sayəsində Azərbaycan təkcə enerji və nəqliyyat sahəsində deyil, eyni zamanda, informasiya, rəqəmsal texnologiyalar və media təhlükəsizliyi istiqamətində də beynəlxalq səviyyədə etibarlı tərəfdaşa çevrilib. Məhz dövlətimizin başçısının iradəsi və siyasi qətiyyəti nəticəsində son illər informasiya təhlükəsizliyinin təmin olunması, milli media sisteminin inkişafı və rəqəmsal suverenliyin qorunması istiqamətində mühüm islahatlar həyata keçirilib.

Qlobal çağırışlara cavab olaraq Azərbaycanın informasiya məkanını süni intellekt və rəqəmsal texnologiyaların yeni imkanları ilə təchiz etməsi, bu sahədə strateji baxış ortaya qoyması Prezident İlham Əliyevin ölkəmizin gələcəyinə hesablanmış inkişaf siyasi baxımdan olduqca dəyərlidir. Bu torpaqlar artıq təkcə tarixi-mədəni irsimizin deyil, eyni zamanda, beynəlxalq intellektual əməkdaşlığın, qlobal dialoqun, texnoloji və informasiya mübadiləsinin də mərkəzinə çevrilir. Bu, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasından sonra yeni inkişaf mərhələsinə qədəm qoymasının ən aydın göstəricilərindəndir.

Eyni zamanda, Forum informasiya dayanıqlılığı, media savadlılığı, dezinformasiyaya qarşı mübarizə və süni intellektin mediada tətbiqi kimi mühüm məsələlərin müzakirəsi baxımından beynəlxalq ekspertlər üçün əvəzsiz platformadır. Burada aparılan diskussiyalar, qarşılıqlı fikir mübadilələri və tövsiyələr Azərbaycanın bu sahədə mövqeyini daha da möhkəmləndirəcək, beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirəcək.

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, müasir dövlətin gücü təkcə onun iqtisadi və hərbi potensialı ilə deyil, informasiya savaşlarındakı mövqeyi və ideoloji hazırlığı ilə də ölçülür. Bu baxımdan, Şuşa Forumunun Azərbaycanın informasiya təhlükəsizliyinə, milli medianın dayanıqlılığına və texnoloji tərəqqiyə verdiyi töhfə olduqca dəyərlidir. Forum Azərbaycanın informasiya sahəsində beynəlxalq liderlik təşəbbüslərini daha da gücləndirəcək və ölkəmizin nüfuzunu yeni zirvələrə daşıyacaq.

***Fatma YILDIRIM,***
***Milli Məclisin deputatı.***

Respublika.- 2025.- 22 iyul (№ 149).- S.8.